YOL HƏRƏKƏTİ QAYDALARINI NİZAMLAYAN NİŞANLARIN MƏNALARI

(əvvəli ötən sayımızda)

VIII Yolun hərəkət hissəsinin zolaqları ilə, xüsusən hərəkət istiqaməti əks tərəfə dəyişə bilən zolaqlarla nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün belə yollarda qırmızı rəngli X formalı siqnalı və aşağı yönəldilmiş oxşəkilli yaşıl siqnalı olan qarşılıqlı svetoforlar təbiq edilir. Bu siqnallar onların altında yerləşən zolaqda hərəkəti müvafiq sürətdə qadağan edir və ya ona icazə verir. Qarşılıqlı svetoforun əsas siqnallarına diagonal üzrə aşağı sağa və ya sola istiqamətləndirilmiş oxşəkilli sarı siqnal əlavə edilə bilər; onun yanması siqnalın dəyişəcəyini və oxun göstərdiyi zolağa keçməyin zəruriliyini bildirir. Hər iki tərəfdən 1.9 nişanlama xətti olan zolağın üzərində əsas siqnallar qarşılıqlı svetofor siqnalları yanmadıqda, bu zolağa girmək qadağandır.

IX Tramvaylar, habelə digər ümumi istifadədə olan nəqliyyat vasitələri üçün ayrılmış zolaqda hərəkət edən həmin nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün "T" hərfi şəklində yerləşmiş ağ-sarımtıl dörd dairəvi siqnalı olan birrəngli siqnal svetoforları təbiq edilə bilər. Svetoforun aşağısında yanan siqnalla eyni anda yuxarıda yanan bir və ya bir neçə siqnal hərəkətə icazə verir. Aşağı siqnalla birlikdə: yuxarıdakı sol siqnal yanırsa - sola, ortadakı yananda - düzünə, sağdakı yananda - sağa hərəkət etməyə icazə verir. Əgər yalnız yuxarıdakı üç siqnal yanırsa, hərəkət qadağandır.

X Dəmiryol keçidində yerləşən dairəvi ağ-sarımtıl siqnal nəqliyyat vasitələrinin keçiddən keçib getməsinə icazə verir. Yanıb-sönən ağ-sarımtıl və sönmüş qırmızı siqnal olduqda görmə sahəsi həddində keçidə yaxınlaşan qatarın (lokomotivin, dreziananın) olmadığı halda hərəkətə icazə verir.

XI Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının yol hərəkəti təhlükəsizlik komissiyasının qərarı olmadan onların ərazisində yerləşən yollarda svetoforlar qurmaq qadağandır.

XII Yollarda svetoforların qurulması və onların lazımi vəziyyətdə işləməsinə nəzarət Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

XIII Müvafiq qərar olmadan yol nişanlarının qurulması üçün onları quraşdıran şəxslər məsuliyyət daşıyırlar.

Svetoforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi

I Svetoforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi yol iştirakçıları üçün məcburidir.

II Svetoforun və ya nizamlayıcının qadağanedici siqnalı verildikdə sürücülər nəqliyyat vasitələrini stop-xətt (1.12 yol xətti) qarşısında (əgər bu xətt yoxdursa, piyadaların hərəkətinə manə törətmədən kəsişən yolun hərəkət hissəsi qarşısında), piyada keçidi qarşısında, digər yolayrıcılarında isə svetofor qarşısında dayanmalıdırlar:

1) yolayrıcında - kəsişən yolun hərəkət hissəsi qarşısında (bu Qanunun 76-cı maddəsinin dördüncü hissəsini nəzərə almaqla);

2) bu Qanunun 44-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq, dəmiryol keçidi qarşısında;

3) başqa yerlərdə - hərəkətinə icazə verilən nəqliyyat vasitələrinə və piyadalara manee yaratmadan svetofor və ya nizamlayıcı qarşısında.

III Sürücü nəqliyyat vasitəsini nizamlayıcının göstərdiyi yerdə dayandırmalıdır.

IV Svetoforun sarı işığı yandıqda və ya nizamlayıcı qolunu yuxarı qaldırdıqda nəqliyyat vasitəsini kəskin tormozlamadan bu maddənin ikinci və üçüncü hissələrində müəyyən edilən yerlərdə saxlaya bilməyəcək sürücülərə hərəkəti davam etdirməyə icazə verilir. Siqnal verilərkən yolun hərəkət hissəsində olan piyadalar keçidi boşaltmalı, bu mümkün olmadıqda isə nəqliyyat vasitələrinin əks istiqaməti hərəkətlərini ayıran xəttin üzərində dayanmalıdırlar.

V Nizamlayıcının siqnalları və göstərişləri svetoforun siqnallarına, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə zidd olduqda belə, sürücülər və piyadalar bu siqnallara və göstərişlərə əməl etməlidirlər.

VI Dəmiryol keçidlərində svetoforun yanıb-sönən qırmızı siqnalı ilə bərabər, keçiddən keçməyin qadağan olunması barədə hərəkət iştirakçılarına əlavə məlumat vermək üçün səs siqnalı da tətbiq oluna bilər.

Yol nişanları

I Yollarda yol hərəkətinin qaydaları və şəraiti barədə müəyyən məlumat saxlayan və yol hərəkətini nizamlayan əsas vasitələrdən biri yol nişanlarıdır (4 saylı Əlavə).

II Yol nişanları 7 nişan qrupundan ibarətdir: xəbərdarlıq, üstünlük, qadağan, məcburi hərəkət istiqaməti, məlumatverici-göstərici, servis, əlavə məlumat (lövhəciklər).

III Hər bir yol nişanının öz nömrəsi olur ki, onun birinci rəqəmi qrupun nömrəsinə uyğun olur, sonrakı rəqəmlər qrupda ardıcıl nömrəni və müxtəliflik mövcud olduqda onun ardıcıl nömrəsini əks etdirir.

IV Müxtəlif qruplardan toplanan üstünlük nişanlarından başqa, hər qrup yol nişanlarının özünəməxsus rəngi və forması vardır.

V Yol nişanlarının sutkanın hər bir vaxtı fərqləndirilməsi və oxunması üçün onlar daxili və xarici işıqlandırılma və ya işıqqaytarıcı səth ilə (nəqliyyat vasitələrinin işıq cihazlarının işığını əks etdirən xırda şüşə kürəciklərinin əsasında xüsusi nazik pərdə) təchiz edilirlər. Daxildən işıqlandırılmış nişanlar yolun süni işıqlandırılmış yerlərində qurulur. Süni işıqlandırılmamış yollarda işıqqaytarıcı səthli nişanlar tətbiq olunur. İşıqqaytarıcı səthli nişanların 100 metrdən az olmayan məsafədən görünməsi təmin edilərsə, onların stasionar işıqlandırılmış yollarda da qurulmasına yol verilir.

VI Yol nişanlarının yerləşdirilməsi müvəqqəti xarakter daşıyırsa (məsələn, yollarda təmir işləri görülürsə, yolun üstü sürüşkəndirsə və s.) və onların istifadə edilməsinə ehtiyac qalmayıbsa, bu nişanlar təcili çıxarılmalıdırlar.

VII Yolun eyni kəsiyində üçdən artıq yol nişanının qurulmasına icazə verilmir (təkrar olunan nişanlar və əlavə lövhəciklər nəzərə alınmamaqla). Xüsusi qeyd olunmuş hallardan başqa yolun sağ tərəfində bütün yol nişanları qurulur. İki və ya artıq zolaqlarla bir istiqamətdə hərəkəti olan yollarda yol nişanları vaxtlı-vaxtında sürücü tərəfindən çətinliklə qavranılarsa, onlarda olan məlumat nəzərə alınmaqla nişanlar təkrar qurulmalıdır. Təkrar nişanlar ayırıcı zolaqlarda, əgər ayırıcı zolaq yoxdursa və əks istiqamətli hərəkət üçün iki hərəkət zolağından artıq hərəkət zolağı nəzərdə tutulmamışdırsa, belə yol nişanları yolun sol tərəfində qurulur. Yolun solunda yerləşdirilən yol nişanının görünməsinin təmin olunması mümkün deyilsə və ya əks istiqamətli hərəkət üçün üç və artıq hərəkət zolağı vardırsa, onda yol nişanları yolun hərəkət hissəsinin üstündə qurulur.

VIII Yol nişanlarının qavranması üçün münasib şəraitin yaradılmasının təmin olunması məqsədilə onlar dəqiq müəyyənləşdirilmiş yerdə yolun hərəkət hissəsinə nisbətən yerləşdirilir. Yol nişanlarının qurulmasından asılı olaraq, onun alt hissəsindən örtüyə qədər olan məsafə:

1) yaşayış məntəqələrindən kənar olan yolların qırağında - 1,5-2,2 metr;

2) eyni ilə yaşayış məntəqələrində - 2-4 metr;

3) təhlükəsizlik adacıqlarında və yolun hərəkət hissəsində - 0,6 metrdən az olmadan;

4) yolun hərəkət hissəsinin üstündə - 5-6 metr təşkil etməlidir.

IX Yolun hərəkət hissəsinin kənarından, yol çiyninin isə torpaq örtüyünün kənarından quraşdırılmış nişana qədər məsafə 0,5-2,2 metr, 5.20.1, 5.21.1-5.27 nişanlarının qırağına qədər olan məsafə isə 0,5-5 metr olmalıdır.

X Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının yol hərəkəti təhlükəsizlik komissiyasının qərarı olmadan onların ərazisində yerləşən yollarda yol nişanları qurmaq qadağandır.

XI Yollarda yol nişanlarının qurulması və onların lazımi vəziyyətdə saxlanılmasına nəzarət Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

XII Müvafiq qərar olmadan yol nişanlarının qurulması üçün onları quraşdıran şəxslər məsuliyyət daşıyırlar.

Xəbərdarlıq nişanları

I Xəbərdarlıq nişanları hərəkət zamanı şəraitə uyğun tədbirlər görülməsi tələb edilən yolun təhlükəli sahəsinə yaxınlaşma və təhlükənin xarakteri barədə yol hərəkəti iştirak-çılarına məlumat verir.

II Xəbərdarlıq nişanlarının əsas fərqləndirici əlamətləri (1.3, 1.4 və 1.31 qrupları istisna olmaqla) onların ağ fonlu üçbucaqlı və qırmızı haşiyəli formasıdır. Onlar heç bir məhdudiyyət nəzərdə tutmur. Lakin belə nişanları görən sürücü diqqətini artırmalı və şəraitə uyğun təhlükəsizlik tədbirləri görməyə hazır olmalıdır.

III Xəbərdarlıq nişanlarını hərəkətin icaze verilmiş sürətindən, görünmə şəraitindən və onların yerləşdirilməsi imkanından asılı olaraq yaşayış məntəqələrindən kənarda, təhlükəli sahələrin başlanğıcından 150-300 metr, yaşayış məntəqələrində isə 50-100 metr aralıda quraşdırırlar. Zərurət olduqda bu nişanlar başqa məsafədə də quraşdırıla bilər. Bu halda təhlükəli sahəyə qədər yolayrıcı varsa, bu yolayrıcından sonra təkrar nişan 7.1.1 lövhəciyi ilə quraşdırılır. Bundan başqa, kəsişən (və ya birləşən) yolda yolayrıcından 50 metr məsafədə 7.1.3 və ya 7.1.4 lövhəciklərindən biri ilə birlikdə belə xəbərdarlıq nişanı quraşdırıla bilər.

IV Xəbərdarlıq nişanları:

1) yolun hərəkət hissəsinda qısa - müddətli işlər aparılarkən 1.23 nişanı işlərin aparıldığı yerə 10-15 metr qalmış (7.1.1 lövhəciyi olmadan);

2) enişlər və yoxuşlar bir-birinin ardınca gelirsə, 1.13 və 1.14 nişanları 7.1.1 lövhəciyi olmadan, enişin və ya yoxuşun başlanğıcında;

3) yaşayış məntəqələrindən kənarda 1.1, 1.2, 1.9, 1.10, 1.21 və 1.23 nişanları təkrarlanırsa, ikinci nişan təhlükəli sahənin başlanmasına azı 50 metr qalmış;

(davamı gələn sayımızda)

YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI, MÖHKƏM HƏRBİ İNTİZAM QORUNUB SAXLANILIR

Xüsusi vasitələrin tətbiqi bölməsi 67987 saylı hərbi hissənin qabaqcıl bölməsidir. Birinciliyin qorunub saxlanılmasında bölmə komandiri baş leytenant Rəhim Soltanovun rolu böyükdür. Gənc olmasına baxmayaraq, qarşısına qoyulan tapşırıqları keyfiyyətlə icra edən hərbi qulluqçumuz məsuliyyəti və şəxsi keyfiyyətləri sayəsində kollektivdə böyük nüfuz qazanıb. O, hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə edilir və dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Baş leytenant R.Soltanov 1989-cu il aprelin 3-də Beyləqan rayonunda anadan olub. 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. İlk olaraq, Daxili Qoşunların 25031 saylı hərbi hissəsində taqım komandiri vəzifəsində xidmətə başlayıb. 2013-cü ilin iyun ayından xidmətini 67987 saylı hərbi hissədə davam etdirir. Artıq bir neçə ildir ki, xüsusi vasitələrin tətbiqi dəstəsində bölmə komandiri vəzifəsində xidmət edir.

Komandir kimi daim öz üzərində çalışır, peşə vərdişlərinin təkmilləşdirilməsi üçün əlindən gələni esirgəmir. Tabeliyindəki hərbi qulluqçulara qarşı olduqca tələbkar davranan baş leytenant R.Soltanovun bölməsi artıq üç ildir ki, keçirilən ümumi inspeksiya yoxlamasının nəticələrinə görə hərbi hissənin bölmələri arasında ardıcıl olaraq birinci yere layiq görülür.

Bütün bunların döyüş hazırlığının yüksək olması, möhkəm nizam-intizam nəticəsində qazanıldığını vurğulayan bölmə komandiri verilən tapşırıqların uğurla yerinə yetirilməsi üçün şəxsi heyatin hər zaman əzmlə çalışdığını qeyd etdi. O, hərbi qulluqçuların keçirilən nəzəri və praktiki məşğələlərdə xüsusi əzmkarlıq nümayiş etdirdiyini də sözlərinə əlavə etdi: "Əsas diqqət ixtisas hazırlığının, atəş və fiziki hazırlıq məşğələlərinin, Daxili Qoşunların taktikası fənni üzrə mövzuların dərindən mənimsənilməsinə yönəldilir. Şəxsi heyət tərəfindən nisbətən zəif mənimsənilmiş mövzular yenidən öyrədilir. Bu zaman qabaqcıl zabitlərin bilik və bacarıqlarından, təcrübələrindən faydalanırıq".

Bilirik ki, uğur qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir. Bu amil qrup komandirlərinin də üzərinə böyük məsuliyyət qoyur. Belə ki, onların düzgün idarəetmə qabiliyyətinə malik olmaları, həmçinin metodiki cəhətdən hazırlıqlı olmaları hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan vəzifələrinin öhdəsindən layiqincə gələn qrup komandirlərindən gizirlər Hicran İsgəndərovun, Nurəddin Eyvazovun, Muxtar Məmmədovun və əsgər Sənan Mirzəyevin adlarını çəkmək olar. Qazanılan uğurlarda onların hər birinin zəhməti var.

Bölmə komandiri əldə olunan müvəffəqiyyətin bundan sonra da qorunub saxlanılması üçün səylə çalışacaqlarına söz verdi.

baş leytenant X.Hacızadə

HƏRBİ XƏBƏRLƏR

Rusiya 2020-ci ilə kimi "İsgəndər-M" və "Tornado-S"lə təchiz olunacaq

Rusiya Silahlı Qüvvələrinin bütün raket-artilleriya birləşmələri 2020-ci ilə qədər "İsgəndər-M" operativ-taktiki raket kompleksi və reaktiv yaylım atəş sistemi ilə təchiz olunacaq.

"AzeriDefence"nin məlumatına görə, artilleriya qoşunlarına "Koalisiya-SV" özüyeriyən haubitsaları da veriləcək.

Tank bölmələri, həmçinin, "Xrizantema-S" və "Kornet-D" özüyeriyən tank əleyhinə raket kompleksləri ilə təmin olunacaq.

Bununla yanaşı, yeni dövlət proqramında perspektivli silahların hazırlanması da nəzərdə tutulub. Bu, prinsipcə yeni nəsil, həmçinin bir-iki nəsli qabaqlayan müasir silah nümunələrini hazırlamağa imkan verəcək.

"Stinger" kiçik pilotsuz uçuş aparatlarını vura biləcək

ABŞ-ın "Raytheon" koorporasiyası tərəfindən hazırlanan yeni distans döyüş başlığına malik "Stinger" zenit raketi kiçik ölçülü pilotsuz uçuş aparatlarını məhv edəcək. Sınaq təlimlərini uğurla başa çatdıran "Stinger" raketinin yeni seriyası hərəkət edən olan iki pilotsuz uçuş aparatını tam dəqiqliklə vura bilib.

Raket hədəfə yaxınlaşanda partlayıcı mexanizm işə düşür və raketi partladır. Raket həmçinin kiçik ölçülü obyekt üzərinə düşən zaman da partlaya bilər. ABŞ istehsalı olan "Stinger" (FIM-92 "Stinger") daşınan zenit-raket kompleksi aşağı hündürlükdə uçan hava hədəflərinin məhv edilməsi üçün nəzərdə tutulub.

Raket kompleksi 1981-ci ildə silahlanmaya qəbul edilib. İstifadəsi sadə və yüngül olan raket kompleksi təxminən 19 dövlətin silahlanmasında yer alır.

Çin yeni amfibiya döyüş maşınının təqdimatını keçirib

Çinin Elmi Tədqiqat İnstitutu (NEVORI – China North Vehicle Research Institute) tərəfindən yaradılan yeni amfibiya döyüş maşınının təqdimatı keçirilib.

Su üzərində sürəti saatda 50 km təşkil edən transportyorun ağırlığı 5.5 tondur. Maşının 70 dərəcədə əyilə bilən tərəfləri suya girdiyində korpusa sıxıldığı üçün hərəkətə mane olmur. Yeni döyüş maşınının həm nəqliyyat vasitəsi, həm də patrul kateri kimi istifadəsi nəzərdə tutulub.

Maşının döyüş modulu və ya raket sistemi ilə silahlandırılması Çinin desant qüvvələrinin istismarında olan döyüş maşınlarının imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Çexiyada modernizə edilmiş T-72 "Scarab" tankı nümayiş olunub

Çexiyanın "Excalibur" şirkəti T-72 tankının modernizə edilmiş "Scarab" adlanan yeni versiyasını nümayiş etdirib.

Brno şəhərində keçirilən "IDET-2017" sərgisində "Excalibur" şirkətinin modernizə etdiyi T-72 "Scarab" tankı iştirakçılara təqdim olunub.

Yeni modernizə edilən T-72 tankı dinamik müdafiəsi ilə fərqlənir. Aktiv müdafiə sistemi tankın görünüşünü əhəmiyyətli dərəcədə dəyişdirib.

Tankın 780 at gücündə V-46 mühərriki 840 at gücündə V-84 mühərriki ilə əvəz edilib. Bu da tankın manevr qabiliyyətini yüksəldir. Tankın maksimal sürəti 60 km/saata qədər çata bilər.

Tankın əsas silahı - 125 mm-lik 2A46 topu qoşalaşdırılmış pulemyotla birgə saxlanılıb. Üzərindəki 12,7 mm-lik pulemyot isə məsafədən idarə olunan iriçaplı pulemyot və ya qumbaraatanla təchiz edilə bilən döyüş modulu ilə əvəzlənib. Tankın optik sistemləri də yenilənib.

"Azeridefence"

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 12 (503)
16 iyun
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

QURTULUŞDAN BAŞLANAN MİLLİ İNTİBAH

Milli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi təmin olundu.

Tarixdə izləri olan şəxsiyyətlərimizin istər dövlətçilik ənənələrimizin yaradılması və inkişafı, istərsə də Azərbaycan mədəniyyətinin intibahı ilə bağlı xidmətləri fəxarət və qürur mənbəyimizdir.

Bu dühalar insan ömrünün zaman adlı sədlərini dəf edərək əbədiyaşarlıq hüququ qazanıblar. Dahilərimizin arasında Ulu Öndər kimi ucalıq zirvəsinə çatan yalnız bir nəfər var ki, o da şərəfli və mənalı ömrünü Azərbaycan xalqının nicatına, milli dövlətçiliyinin dirçəlməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına həsr edən Heydər Əliyevdir.

Bu böyük şəxsiyyət həyatı boyu fəaliyyət göstərdiyi hər bir vəzifədə, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın və dövlətimizin mənafeləri üçün çalışmış, onu hər şeydən uca tutmuş, Azərbaycanın inkişafı naminə misilsiz işlər görmüşdür. Heydər Əliyevin ölkəmizə istər sovet illərində, istərsə də müstəqillik dövründə rəhbərliyə gəlişini Azərbaycanda intibahın başlanğıcı kimi səciyyələndirmək olar. Birinci dəfə Ulu Öndər Azərbaycanı sovetlər birliyinin inkişaf etmiş sənaye-aqrar respublikasına çevirdi, gələcək müstəqilliyimizin əsaslarını formalaşdırdı.

1993-cü ildə isə Heydər Əliyev xilaskarlıq missiyasını üzərinə götürdü, özünün böyük əsəri olan müasir və müstəqil Azərbaycan dövlətini qurdu. O dövrdə Azərbaycanda cərəyan edən xaotik proseslər təsdiq edirdi ki, yalnız möhkəm siyasi iradəsi olan bir rəhbər ölkəni bütün təhlükələrdən qurtarmaq, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır bir missiyanın öhdəsindən gələ bilər. Bu lider isə Heydər Əliyev idi. Bu baxımdan 1993-cü ildə dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, cəbhədə torpaqlarımızın itirildiyi, bir sözlə, Azərbaycan dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqımızın böyük oğlu, hayatı və mübarizəsi üçün Milli Liderlik missiyası xarakterik olan Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlanmış qardaş qırğınını, hərbi xəyanəti, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü yalnız o böyük insan aradan qaldıra bilərdi. O zaman vəziyyəti düzgün qiymətləndirən xalqın qərarı ölkə rəhbərliyinə Heydər Əliyevin gəlməsi idi. Bu məqsədlə Ulu Öndərə məktublar, teleqramlar göndərilirdi. Bu müraciətlər maddi-mənəvi iztirablara məruz qalan bir xalqın sadəcə vəziyyətdən çıxış yolu deyil, həm də dövlətçiliyimizin yaşaması üçün qəbul edilən tarixi bir xalq qərarı idi.

Dövlətçiliyimizin müqəddəratının həll olunduğu məqamda Ulu Öndər Heydər Əliyevin Bakıya gəlişi respublika əhalisində böyük ümidlər yaratdı. Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidli istəyinə səs verərək Bakıya qayıtması onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, dövlətinin taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Respublikada hərc-mərcliyin, dərəbəyliyin hökm sürdüyü, qanunsuz silahlı dəstələrin at oynatdığı, düşmənlə mübarizə apara biləcək nizami ordunun olmadığı, ərazilərinin işğalının gündən-günə genişləndiyi, bir çox xarici dövlətlərin Azərbaycana qənim kəsildiyi, beynəlxalq aləmdə ölkəmizin təklendiyi bir vaxtda hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişmək, normal məcrasına salmaq böyük siyasət və müdriklik tələb edirdi.

Bakıya gəldikdən sonra isə parlamentə sədr seçilmək barədə iqtidarın və deputatların xahişini qəbul etməyən Heydər Əliyev ilk növbədə Gəncədə yaranmış vəziyyətlə tanış olmaq üçün ora yola düşdü, döyüş meydanına çevrilmiş hərbi hissələrin ərazisini gəzdi. Dahi siyasətçinin şəhərə gəlişi əhalidə gələcəyə böyük inam yaratdı. Şəhər sakinləri, hərbi qulluqçularla görüşüb söhbət etdi.

Ulu Öndər Heydər Əliyev sonralar həmin vaxtları xatırlayaraq deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkət Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyənlər belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Beləliklə, xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər xilaskarlıq missiyasını həyata keçirməyə başladı. 1993-cü ilin iyununda bir tərəfdən erməni hərbi birləşmələri hücumlarını, bir tərəfdən Azərbaycanı parçalamaq istəyən separatçı qruplar öz fəaliyyətlərini genişləndirir, digər yandan vətəndaş qarşıdurması şiddətlənirdi. Lakin Heydər Əliyevin qətiyyətinin, xarizmasının, siyasi uzaqgörənliyinin qarşısında aradan qaldırılması mümkün olmayan məsələ yox idi. Bu mənada 1993-cü ildən sonra cərəyan edən siyasi-ictimai, iqtisadi proseslər, bütün sahələrdə inkişafa doğru dönüş yaradılması heqiqətən də ölkəmizə milli mənafelərimizi əldə rəhbər tutan xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasət - çidən ki üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə baxmayaraq, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtardı.

Milli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsi onun sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın qurtuluş, qəhrəmanlıq tarixidir. Bu məqam Heydər Əliyev ömrünün mənalı, əzəmətli tarixi olduğu kimi, həm də Heydər Əliyevlə Azərbaycan xalqının sarsılmaz birliyinin, həmrəyliyinin rəmzi təcəssümüdür.

Heydər Əliyevin Prezident seçilməsi, onun yaratdığı Yeni Azərbaycan Partiyasının iqtidara gəlməsi isə respublikada tamamilə yeni bir siyasi-ictimai münasibətlər sisteminin bərqərar edilməsinə, nəhayət, ümumxalq maraqlarının gerçəkləşməsinə xidmət edən proseslərin start götürməsinə səbəb oldu, xalqın özünə inamını, sabaha nikbin baxışlarını bərpa etdi, dövlətçiliyimizin əsasını təmin edən ictimai-siyasi sabitliyin əsasını qoydu. Azərbaycan yalnız Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Azərbaycan beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsindən sovuşdu, dünya dövlətləri arasında özünə layiqli yer qazandı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, sivil və hüquqi dövlət quruculuğunun əsası qoyuldu.

Beləliklə, XX əsrin sonlarında Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin uzaqgörən və zəngin siyasi fəaliyyəti sayəsində mümkün oldu. Ulu öndər öz əməlləri, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı.

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

İyunun 3-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov IV İslam Həmrəyliyi Oyunlarında uğurla iştirak edərək yüksək mükafatlar qazanan polis əməkdaşlarını, Daxili Qoşunların hərbi qulluqçularını və DİN İdman Cəmiyyətinin yetirmələrini qəbul edib.

Mükafatçıları salamlayan nazir xalqımızın Milli Lideri Heydər Əliyevin idmanı dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdiyini, ölkə gənclərinə və idmançılara diqqət və qayğını heç zaman əsirgəmədiyini, bu siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini bildirərək, nəticədə Azərbaycan idmançılarının dünyanın ən güclüləri sırasında yer aldığını, ölkəmizin beynəlxalq aləmdə idman dövləti kimi tanındığını diqqətə çatdırıb.

Qeyd olunub ki, 10 gün davam edən İslamiada bütövlükdə ölkəmiz üçün olduqca uğurlu keçib. İdmançılarımız bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci olmaqla böyük tarixi uğura imza atmaqla xalqımıza qələbə sevinci bəxş ediblər.

Nazir R.Usubov sözügedən beynəlxalq əhəmiyyətli tədbir ərəfəsində və keçirildi - yi müddətdə dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın ali diqqəti və təşkilatçılığı sayəsində böyük bir fəaliyyətin ortaya qoyulduğunu, İslamiadanın Azərbaycan tarixinə möhtəşəm idman bayramlarından biri kimi düşdüyünü vurğulayıb, tədbir zamanı asayişin və təhlükəsizliyin etibarlı qorunduğunu məmnunluqla qeyd edib.

Sonra Azərbaycan Milli Komandasının tərkibində ümumilikdə, 9 qızıl, 3 gümüş və 1 bürünc medal əldə edən, bununla da ölkəmizin birincilik qazanmasına öz layiqli töhfələrini verən əməkdaşların mükafatlandırılması barədə Daxili İşlər Nazirinin müvafiq əmri elan olunub. Qaliblərə növbədənkənar hərbi rütbə, DİN-in "Fəxri fərman"ları, "Xidmətdə fərqləndiklərinə görə" və "Əla xidmətlərinə görə" döş nişanları təqdim edilib.

Oyunların gümüş medalçısı, Sumqayıt şəhər polis İdarəsinin əməkdaşı, polis serjantı Tural Əliyev qalib idmançılar adından çıxış edərək onlara yaradılan şəraitə, göstərilən ali diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlığını bildirib, idmanımızın şöhrətinin bundan sonra da uca tutulması, bayrağımızın daim zirvələrdə dalğalanması üçün var qüvvələri ilə çalışacaqlarına söz verib.

İdmançıları, məşqçiləri "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarında əldə etdikləri qələbə münasibətilə bir daha təbrik edən general-polkovnik R.Usubov onlara yeni, daha böyük uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, əməkdaşlarımız ölkə idmanının şərəfinin uca tutulması, göstərilən etimadın doğruldulması üçün bundan sonra da səylərini əsirgəmə - yəcəklər.

DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI MÜKAFATLANDIRILIB

Şəxsi heyət bundan sonra da keçirilən bütün mötəbər tədbirlər zamanı, o cümlədən "Formula-1 Azərbaycan Qran Pri" yarışlarında da onlara göstərilən etimadı doğruldacaq, dövlət və dövlətçiliyimizin qorunması naminə verilən bütün əmr və göstərişləri tam keyfiyyətlə yerinə yetiracəkdir.

Mayın 12-dən 22-dək ölkəmiz daha bir möhtəşəm idman yarışına - IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edib. Daxili Qoşunların şəxsi heyəti hər zaman olduğu kimi, dövlətə, dövlətçiliyə sadiq qalaraq, oyunlar zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması üzrə üzərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlib.

IV İslam Həmrəyliyi Oyunları zamanı hərbi qulluqçularımız yüksək hərbi intizam, peşəkarlıq, dözümlülük və əzmkarlıq nümayiş etdirərək, digər hüquq-mühafizə orqanları ilə birgə qarşıya qoyulmuş tapşırıqları tam və keyfiyyətlə yerinə yetiriblər.

IV İslam Həmrəyliyi Oyunları zamanı qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirdiklərinə, yüksək peşəkarlıq və hərbi intizam n

Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin

Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 may 2017-ci il.

HƏRBİ HİSSƏLƏRİN YARANMASININ 25-ci İLDÖNÜMÜ QEYD EDİLİB

İyun ayının 12-də Daxili Qoşunların 67987, 25032 və 64412 saylı hərbi hissələrinin yaradılmasının 25-ci ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Yarandıqları gündən etibarən zəngin xidmət yolu keçərək, böyük təcrübə toplayan hərbi hissələrimiz döyüş təlimi və xidmət səviyyəsinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edib və nailiyyətlər qazanıb.

Qeyd edim ki, ötən 25 il müddətində adıçəkilən hərbi hissələrdə hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesi daim təkmilləşdirilmiş, tədris müasir standartlara uyğun şəkildə aparılmış, müasir hərbi praktikadan geniş istifadə olunmuşdur.

Hərbi hissələrinin ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov hər üç hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbriklərdə şəxsi heyətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı hər zaman doğruldacaqlarına, hərbi xidmət borcunu vicdanla yerinə yetirəcəklərinə, vətənpərvərlik amalına sadiq qalaraq, dövlətçiliyimizin qorunması naminə xidmət aparan Daxili Qoşunların daha da qüvvətlənməsi və inkişafı yolunda öz töhfələrini əsirgəməyəcəklərinə əminlik ifadə olunub.

Qeyd olunub ki, Daxili Qoşunların ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələri əmin-amanlığın, asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan xidmətə-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir və şəxsi heyət xalqın, dövlətin, Vətənin mənafeyi naminə xidməti vəzifə borclarının öhdəsindən həmişə olduğu kimi, bundan sonra da layiqincə gələcəkdir.

Hərbi hissə komandirlərinin müvafiq əmrlərinə əsasən ildönümü ərəfəsində hərbi xidmətə fərqlənmiş hərbi qulluqçulara mükafatlar tədbir olunub.

Tədbir şəxsi heyətin tantənəli keçidi ilə başa çatıb.

baş leytenant X.Hacızadə

QƏLƏBƏ SEVİNCİNİ YAŞAYACAĞIMIZ GÜN UZAQDA DEYİL

16075 saylı hərbi hissədə nümunəvi xidməti, bacarığı ilə fərqlənən hərbi qulluqçulardan biri baş əsgər Şahmar Şabanovdur.

O, 1998-ci il sentyabrın 10-da Kürdəmir rayonunun Çöhranlı kəndində dünyaya göz açıb. Orta təhsillini başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətinə Daxili Qoşunların 16075 saylı hərbi hissəsində başlayıb. Hal-hazırda hərbi hissənin komendant bölüyündə baş atıcı vəzifəsində xidmət edir.



Komendant bölüyündə xidmət etməyin şərəfli olduğunu bildirən baş əsgər Ş.Şabanov komandanlığın etimadını doğrultmaq üçün öz üzərində səylə çalışır. Həm fiziki, həm də atəş hazırlığı məşğələlərində fərqlənərək, yoldaşlarına nümunə olmağı bacarır.

O bildirir ki, xidmət Qarnizon və qarovul xidmətləri nizamnaməsinin tələblərinə uyğun aparılır, hərbi qulluqçular xidmətə cəlb olunmamışdan önçə təlimatlandırılırlar. Saatdara üzərinə düşən vəzifələr izah olunur, postda olarkən daha ayıq-sayıq olması diqqətə çatdırılır.

Silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyən hərbi qulluqçu onun qorunması və vaxtında təmizlənməsinin vacibliyini nəzərə çatdırdı. Vurğuladı ki, hər bir əsgər öz silahını göz bəbəyi kimi qorumalıdır.

Baş əsgər Ş.Şabanovun yeganə arzusu düşmən tapdağı altında qalan torpaqlarımızın tezliklə azad olunmasıdır. "Ər igidlər döyüş meydanlarında tanınar" deyə düşünən və bu amal uğrunda xidmətini təkmilləşdirən silahdaşımız qələbə sevincini yaşayacağımız günün çox da uzaqlarda olmadığına, ordumuzun yağı düşmənə tutarlı cavab verəcəyinə hər zaman inanır: "Nə qədər ki Azərbaycanda igid, mərd oğullar yetişir, bu torpaqdan düşmənə pay olmaz. Analarımızın tökdüyü hər damla göz yaşına görə cavab verəcək erməni işğalçılarını diz çökdürəcəyimiz qısas günü amansız olacaq".

leytenant N.Ağayeva

Milli Qurtuluş Günü ərəfəsində Səbail rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində tədbir keçirilib.

Tədbirə rayon ictimaiyyəti, ali təhsil müəssisələrinin tələbələri, orta məktəb şagirdləri və Azərbaycan Velosiped İdmanı Federasiyasının gənc idmançıları da qatılıb.

HƏRBİ HİSSƏMİZDƏ MİLLİ QURTULUŞ GÜNÜ QEYD OLUNUB

Tələbə və şagirdlər, müəllimlər hərbi hissədə əsgərlər üçün yaradılmış sosial-məişət şəraiti ilə tanış olublar. Daxili Qoşunların istifadəsində olan silah, zirehli texnika və avtomobillər qonaqlara nümayiş etdirilib, onların tətbiqi barədə məlumat verilib.

Sonra tədbir iştirakçıları qarşısında çıxış edən polkovnik Mətləb Qənbərov Səbail rayon İcra Hakimiyyəti ilə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birgə layihəsi çərçivəsində davamlı olaraq keçirilən tədbirlərdən danışaraq, vurğulayıb ki, Milli Qurtuluş Gününün təntənə ilə keçirilməsi də bu layihənin tərkib hissəsidir.

Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova çıxışında Milli Lider Heydər Əliyevin ölkəmizdə ordu quruculuğu işindəki əvəzsiz xidmətlərindən danışıb. Bildirilib ki, Ulu Öndərin səyləri nəticəsində hələ sovetlər dönəmində respublikamızda peşəkar hərbçilərin yetişdirilməsi məqsədilə C.Naxçıvanski adına hərbi litsey yaradılmışdır.

Diqqətə çatdırılıb ki, bu gün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Azərbaycan Ordusunun möhkəmlənməsi, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər hər birimizi qürurlandırır.

Milli Qurtuluş Gününə həsr olunmuş tədbir bayram konserti ilə davam etdirilib. Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının xalq artisti Zülfiyyə Xanbabayeva vətənpərvərlik ruhunda mahnıları ilə çıxış edib.

Mətbuat xidməti

ŞƏXSİ HEYƏTİN SƏHHƏTİNİN QORUNUB SAXLANILMASI ÜÇÜN BÜTÜN ZƏRURİ TƏDBİRLƏR HƏYATA KEÇİRİLİR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb personalının fəaliyyəti danılmazdır. Elə bu səbəbdən də yerlərdə tibb xidmətlərinin fəaliyyəti Daxili Qoşunlar və hərbi hissə komandanlıqlarının ciddi nəzarətdə saxladığı sahələrdən biridir.

16075 saylı hərbi hissənin tibb personalı da vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə həyata keçirir.

Tibb xidmətinin rəisi tibb xidməti baş leytenantı İlham Abbasov şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plan əsasında təşkil edir. Onun sözlərinə görə, öncə xidmət daxilində müşavirə keçirilir ki, bu zaman ilk olaraq xəstələrin sağlıq durumu, müalicə prosesi təhlil edilir, görüləcək işlərin bölgüsü aparılır. Hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Belə ki, hakim-terapevt baş leytenant Ziya Rüstəmov stasionar müalicəyə qəbul olunmuş xəstələri nəzarətə götürür, xəstələrə venadaxili inyeksiyaları yeridir, eyni zamanda xəstələrin ambulator müayinə və müalicəsini təmin edən tibbi həyatın işinə rəhbərlik edir.

Xəsarət alanlara və təxirəsalınmaz xəstələrə həkim nəzarəti altında yardım göstərmək, eczaxanadan alınan dərmanları düzgün saxlamaq, tibbi avadanlığın düzgün istifadəsinə və saz vəziyyətdə saxlanılmasına, sterilizasiyasına diqqət yetirmək tibb xidmətində feldşerlər - kiçik gizirlər Röyalə Namazova və Aygün Qabulovanın funksional vəzifələridir. Tibb xidmətində sanitar təlimatçı-dezinfektor çavuş Rada Petrova isə həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya işləri aparır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına nəzarət edir.

Bütün bunlarla yanaşı, gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətinin tibbi müayinəsi də aparılır. Sağlamlığında problem olan hər hansı bir hərbi qulluqçu aşkar olunarsa, dərhal xidmətdən azad olunur, yardım göstərilir, ehtiyac duyulduqda tibb məntəqəsinə ambulator müalicəyə qəbul olunur.

Bir sözlə, şəxsi heyətin səhhətinin qorunub saxlanılması istiqamətində tibb xidməti tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir.

baş leytenant T.Əlizadə

16075 SAYLI HƏRBİ HİSSƏ QƏFLƏTƏN QARŞIYA ÇIXAN TAPŞIRIQLARIN YERİNƏ YETİRİLMƏSİNƏ HAZIRDIR

Keçirilən praktiki təlimlər bir məqsədə - şəxsi heyətin bilik və bacarıqlarının, çevikliyinin artırılmasına, peşə vərdişlərinin təkmilləşdirilməsinə xidmət edir.

Qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra edən hərbi hissələrimizdən biri də 16075 saylı hərbi hissədir.

Hərbi hissədə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına xüsusi diqqət yetirilir.

Hərbi hissə komandiri vəzifələrini müvəqqəti icra edən mayor Ramil İsmayılov döyüş hazırlığı barədə məlumat verərkən qeyd etdi ki, döyüş qabiliyyətinin yüksək səviyyədə qorunub saxlanılması üçün şəxsi heyətə mütəmadi olaraq nəzəri məşğələlər tədris olunur, eyni zamanda praktiki təlimlər keçirilir. Hərbi hissənin bölmələrinin döyüş hazırlığı mütəmadi olaraq Daxili İşlər Nazirinin və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq direktivinin tələblərinə əsasən həyəcan siqnalı yoxlanılır. Məqsəd döyüş hazırlığına gətirilmə barədə siqnalın alınması zamanı qərargahın bölmələrinin fəaliyyətinin düzgün koordinasiyası, döyüş bölgüsünə uyğun olaraq vəzifə bordlarının yerinə yetirilməsində zabit, gizir, çavuş və əsgərlərin fəaliyyətlərinin taktiki-sıra metodu ilə məşq etdirilməsidir. Bu zaman hər bir hərbi qulluqçunun fərdi hazırlığına da önəm verilir.

Döyüş hazırlığının yüksək saxlanılması üçün keçirilən təlim prosesinin mahiyyətinin şəxsi heyətə düzgün izah olunması da vacib məsələlərdəndir. Bununla əlaqədar aparılan söhbətlərdə vurğulanması önəmli olan əsas məqam hər bir hərbi qulluqçu tərəfindən həyəcan siqnallarının tələbinə şüurlu əməl etmək qabiliyyətinin artırılmasıdır.

Həyəcan siqnalları ilə fəaliyyət zamanı maddi-texniki təminat tədbirləri də önəm daşıyır. Şəxsi heyətin vaxtında silahlandırılması, sürücülərin hazırlığı, bununla əlaqədar avtomobil və zirehli texnikanın vaxtında düzülüş yerinə gətirilməsi əsas şərtlərdəndir.

Taktiki-sıra metodu ilə məşğələlər başa çatdıqdan sonra təlim prosesi bölmə komandirlərinin iştirakı ilə təhlil edilir. Bölmələrin ayrılıqda və birgə fəaliyyətində mövcud nöqsanlar müzakirə olunur, bir daha təkrarlanmaması üçün görüləcək tədbirlər nəzərdən keçirilir.

Hərbi qulluqçularla keçirilən praktiki təlimlər bir məqsədə - şəxsi heyətin bilik və bacarıqlarının, çevikliyinin artırılmasına, peşə vərdişlərinin təkmilləşdirilməsinə xidmət edir.

baş leytenant T.Əlizadə

99713 saylı hərbi hissənin xidməti nailiyyətləri, əzmkarlığı ilə fərqlənən, 2016-cı ilin ümumi inspeksiya yoxlamasını əla və yaxşı qiymətlərlə başa vuran bölməsi xüsusi vasitələrin tətbiqi dəstəsidir. Hərbi hissə komandanlığının etimadını doğrultmaq üçün durmadan çalışan şəxsi heyət artıq uzun zamandır ki, hissə üzrə birinciliyini qoruyub saxlamağı bacarır.

Dəstə komandirinin vəzifəsini icra edən kapitan Neymət Qubatov xidmətə-döyüş fəaliyyətinin Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrlərinin tələblərinə ciddi əməl etməklə təşkil etdiyini bildirdi. Tələbkarlığı ilə fərqlənən kapitan N.Qubatov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün tabeliyində olan hərbi qulluqçuların gündəlik fəaliyyətinin daim nəzarətdə saxladığını qeyd etdi. Belə ki, xidmətin düzgün təşkili, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinə nail olma müsbət nailiyyətlərin əldə olunmasına təkan verir. Ötən ilin yekun yoxlamasının nəticələrinə görə əldə olunmuş yüksək nailiyyətləri bu il də qoruyub saxlamaq üçün dəstənin şəxsi heyəti ümumilikdə səfərbər olunub.

Kapitan N.Qubatov bu işdə ona yaxından köməklik göstərən bölük komandirlərinin, qrup və yarımqrup komandirlərinin də adlarını çəkməyi unutmadı. Xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Mübariz Məmmədovun hərbi qulluqçuların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər apardığını vurğuladı. Söylədi ki, şəxsi heyətdə sağlam mənəvi-psixoloji durumun formalaşdırılması və onlar arasında münasibətlərin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektiv uyğunlaşdırılması önəm verilən əsas məsələlərdəndir. Görülən işlərin nəticəsidir ki, ölkəmizdə keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə, o cümlədən IV İslam Həmrəyliyi oyunları zamanı bölmənin şəxsi heyəti yüksək peşəkarlıq nümayiş etdirərək, təhkim olunmuş obyektlərin mühafizəsində qoşun zənciri vidmətini lazımi səviyyədə təşkil etməyi bacarıb. Bu zaman Daxili Qoşunlar Komandanının müvafiq əmrinin tələblərinə əsasən xidmətə daha hazırlıqlı, mənəvi-psixoloji durumu sabit olan hərbi qulluqçular cəlb edilmiş və bu meyarların əsasında da xidmət tamamilə nöqsansız başa çatdırılmışdır.

Kapitan N.Qubatov hazırda qarşıda duran tapşırıqlardan birinin "Formula 1 Azərbaycan Qran Pri" yarışlarına hazırlıq işlərinin aparılmasının olduğunu qeyd etdi: "Dəfələrlə mühüm əhəmiyyətli tədbirlərdə qoşunları layiqincə təmsil edən hərbçilərimiz əminik ki, bu dəfə də qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcəkdir. Gözlənilən uğurlu nəticənin əldə olunmasında şəxsi heyətdə riayət etmə, təhlükəsizlik qaydalarına ciddi əməl etmə mövzularında izahedici söhbətlərin aparılması vacib şərtlərdən biridir. Bunun üçün tabeliyimizdə olan hərbi qulluqçuların fərdi keyfiyyətlərinin öyrənilməsi önəmlidir. Bu istiqamətdə isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Anar Əliyevin zəhmətini də yüksək qiymətləndirmək olar".

Öz işinin öhdəsindən bacarıqla gələn müavin hərbi qulluqçuların fərdi keyfiyyətlərin öyrənilməsində həssas məqamların olduğunu vurğuladı : "Hər bir insanı fərdi qaydada tanımaqla onun xidmətə münasibətini, eləcə də hazırlığını müəyyənləşdirmək olar. Tələbkarlıqla yanaşı, hərbi qulluqçulara diqqət və qayğının artırılması gözlədiyimiz nəticənin əldə olunmasına təkan verən faktordur. Ümumilikdə, dəstədə xidmət edən bütün komandir heyətinin öz işini düzgün istiqamətdə qurmasını əldə olunmuş uğurun nəticəsi kimi qiymətləndirmək olar".

leytenant N.Ağayeva

"QARŞIMIZDA DURAN VƏZİFƏLƏRİN İCRASINA HƏR ZAMAN HAZIRIQ"

DAXİLİ QOŞUNLARIN FORMALAŞMASI VƏ DÖYÜŞ YOLU HAQQINDA MARAQLI MƏQAMLAR...

Bu mövzuya işıq salan arxiv sənədləri qiymətli mənbədir

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının ötən dövrdə keçdiyi yol maraqlı məqamları ilə zəngindir. Əslində, arxada qoyduğumuz illər çox da böyük olmayan tarixi dövrü əhatə etsə də, əsas məsələ zamanın miqyasında deyil. Vacib cəhət ötən bu dövrdə baş vermiş mürəkkəb proseslərin və hadisələrin Daxili Qoşunların həyatında xüsusi rol oynamasıdır. Mahz bu baxımdan yanaşdıqda mövzu üzrə geniş tədqiqatların aparılmasına zərurət var. Nəzərə almaq lazımdır ki, bu gündədk Daxili Qoşunların fəaliyyəti ilə bağlı sistemli şəkildə tədqiqatlar aparılmayıb. Düzdür, Daxili Qoşunların fəaliyyətinin ayrı-ayrı istiqamətləri və mərhələləri üzrə müəyyən araşdırmalar reallaşdırılsa da, bütövlükdə bu prosesi bitkin hesab etmək olmaz.

Bu gün Daxili Qoşunlarda şəhid olmuş, itkin düşmüş və yaralanmış hərbi qulluqçuların mərkəzləşdirilmiş siyahıları üzrə araşdırma işləri aparılır. Əslində, belə bir zərurət çoxdan yaranmışdı. Belə ki, ötən dövrdə bir sıra itkin düşmüş hərbi qulluqçularımıza aidiyyəti mahkəmələrin qərarları ilə şəhid statusu verilib, bəzi hərbi qulluqçularımız əsirlikdən qayıdıb, müəyyən hərbi qulluqçuların yaralanması faktı qeydiyyata düşməyib, digər məsələlər də var. Təqdirəlayiq haldır ki, bu istiqamətdə bir çox məqamlara aydınlıq gətiriləcək. Bununla bağlı sıralarımızda uzun müddət xidmət edən hərbi qulluqçular və ehtiyata buraxılmış veteranlarımız öz köməkliklərini əsirgəməməlidirlər.

Daxili Qoşunların arxivində işləyərkən hərbi hissələrimizin yaranma gününün hansı sənədli mənbələr əsasında müəyyən edilməsi üzrə də araşdırma apardım. Bununla əlaqədar tanış olduğum sənədlərdə eksini tapan məqamlar Daxili Qoşunların xidmətə-döyüş fəaliyyəti haqqında yeni kitabda təqdim ediləcək. Hərbi hissələrin tarixinin yazılması və təbliğ olunması zamanı hərbi hissənin nömrəsinə, yoxsa dislokasiya olunduğu yerə göre fəaliyyət məqamlarının əsas götürülməsi məsələsi ilə bağlı yanaşma ortaya qoyulursa, onun formalaşması, təşkili, yerdəyişməsi bərəsində müvafiq əmrlərin müddəaları rəhbər tutulmalı, tarixi varislik prinsipinə riayət olunmalıdır. Həmçinin, hərbi hissələrin yaranma günü və ya gününün seçimində və qərarlaşdırılmasında rəsmi sənədlərə istinad olunmaqla yanaşı, faktiki formalaşdıqları, fəaliyyətə başladıqları, eləcə də döyüş yolu mərhələsinə qədəm qoyduqları tarixlər də nəzərə alınmalıdır. Bununla yanaşı, bəzi hərbi hissələrin fəaliyyətinin təsadüf etdiyi tarixi dövr fərqini də nəzərdən qaçırmaq olmaz. Bu sahədə mövcud boşluqların aradan qaldırılması da tarixi yaddaş baxımından önəmlidir.

Həyat təcrübəsi göstərir ki, hər bir hərbi qurum öz tarixini hərtərəfli öyrənməli, bu bilik mənbəyindən döyüş və mənəvi-psixoloji hazırlıq prosesində dolğun istifadə etməlidir. Belə yanaşma hərbi ənənələrə bağlılığın qorunması, tarixi faktların təhrif olunmasına yol verilməməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

Yalçın Abbasov

Daxili Qoşunların tarixi dövlətimizin müstəqillik tarixinin tərkib hissəsidir. Respublikamızın suverenliyi və ərazi bütövlüyünün müdafiəsi, xalqımızın əmin-amanlığının qorunmasında Daxili Qoşunların xidmətləri danılmazdır. Dövlətçiliyimizin üzləşdiyi ağır sınaqlar zamanı Daxili Qoşunların şəxsi heyəti fədakarlıq nümunələri göstərib. Belə bir şərəfli tarixin öyrənilməsi hərbi-vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bu gün Daxili Qoşunların Mətbuat xidməti tərəfindən qoşunların xidmətidöyüş fəaliyyətinin dünənini və bu gününü əks etdirən kitab hazırlanır. Bu mövzuda ötən dövr ərzində iki kitab işıq üzü görüb. Həmin kitablar sözsüz ki, qiymətli mənbələrdir, ancaq bu gün çapa hazırlanan üçüncü kitab bir sıra cəhətlərinə görə əvvəlki nəşrlərdən fərqlənəcək. İlk növbədə onun məzmununda müəyyən tədqiqat işlərinin nəticələrinə geniş yer verilməsi ilə seçiləcək. Daxili Qoşunların formalaşması və təşəkkülü, ərazi bütövlüyümüz uğrunda döyüş yolu, ictimai təhlükəsizliyin keşiyində fəaliyyəti haqqında bir sıra faktlar və məqamlar ilk dəfə olaraq öz aksini tapacaq. Bununla yanaşı, kitabda Daxili Qoşunların şəxsi heyətinin ön cəbhədə çəkilmiş bir sıra unikal fotoları da ilk dəfə olaraq təqdim ediləcək. Bu fotolar qoşunların bəzi veteranlarının şəxsi arxivindəndir. Ümumilikdə, xüsusi vurğulamaq istərdim ki, Daxili Qoşunların tarixi ilə bağlı tədqiqatların aparılması veteranlarımızın iştirakı olmadan mümkün deyil. Ona görə də məsələnin bu tərəfi də diqqətdə saxlanıb.

Qeyd edim ki, kitabın hazırlanması prosesində mənə nəşrin redaktoru olaraq Daxili Qoşunların arxivində tədqiqat məqsədilə işləmək imkanı yaradıldı. Belə bir imkanın yaradılmasına görə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova dərin minnətdarlığımı bildirirəm.

Onu da vurğulamaq yerinə düşər ki, Daxili Qoşunların arxivində belə tədqiqat işi ilk dəfə aparılırdı. Arxivdə xidmət edən hərbi qulluqçularımız tərəfindən göstərilən lazımi kömeklik nəticəsində Daxili Qoşunların formalaşmasının ilkin mərhələsi ilə əlaqədar bir sıra məsələlərə müvafiq sənədlər vasitəsilə aydınlıq gətirildi. Ümumilikdə, arxivimizin Daxili Qoşunların tarixi nöqteyi-nəzərdən sənəd bazası zəngindir və gələcək tədqiqatlar üçün də dəyərli mənbədir.

Arxiv sənədlərindən məlum olur ki, SSRİ dövründə respublikamızın ərazisində SSRİ DİN Daxili Qoşunlarının 5-ci diviziyasının tərkibinə daxil olmuş 3650, 3669, 6500, 7535, 5456, 5477, 5478 saylı hərbi hissələr fəaliyyət göstərib. Hər birinin öz funksiyası olan bu hərbi hissələr paytaxtda və bölgələrdə yerləşib. Maraqlıdır ki, bu hərbi hissələrin bir qismi 1988-1991-ci illərdə Dağlıq Qarabağda erməni separatçılarının silahlı dəstələrinə qarşı xüsusi əməliyyatlarda, habelə Ermənistanla həmsərhəd rayonların ərazisində ictimai təhlükəsizliyin təmin olunmasında iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1991-ci il tarixli, 489 nömrəli fərmanı ilə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının formalaşmasına başlanarkən yuxarıda qeyd olunan hərbi hissələr onun tabeliyinə verilib. Yeni bu hərbi hissələr Azərbaycan Daxili Qoşunlarının ilk hərbi hissələridir.

11.12.1991-25.02.1992-ci il tarixlərdə Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının idarə olunması 3669 şərti nömrəli hərbi birləşmə qərargahı vasitəsilə həyata keçirilib və Azərbaycan Respublikası Prezidentinin 16.01.1992-ci il tarixli, 137 nömrəli fərmanı ilə hərbi birləşmə komandanı vəzifəsinə ilk təyinat olub.

3669 saylı hərbi birləşmənin qərargahı bazasında 25.02.1992-ci il tarixdən etibarən Daxili Qoşunların İdarəsi yaradılıb və Daxili Qoşunlar İdarəsinin rəisi vəzifəsi rəsmiləşdirilib.

22.04.1992-ci il tarixdən isə Daxili Qoşunların İdarəsi Daxili Qoşunlar Komandanının Baş İdarəsi adlandırılıb. Azərbaycan Respublikası Prezidentinin 690 nömrəli, 22.04.1992-ci il tarixli fərmanı ilə Daxili Qoşunlar İdarəsinin rəisi vəzifəsi ləğv edilərək, Daxili Qoşunların Komandanı vəzifəsi təsis olunub.

3650, 3669, 6500, 7535, 5456, 5477, 5478 saylı hərbi hissələr Daxili Qoşunların tərkibinə daxil olarkən onların şərti nömrəsi, təyinatı, dislokasiya yeri saxlanıb. Bu hərbi hissələrin maddi-texniki bazasından o dövrdə yeni hərbi hissələrin yaradılmasında istifadə olunub.

Arxivdə saxlanan Daxili İşlər Nazirinin 30.06.1992-ci il tarixli müvafiq əmri o dövrdə Daxili Qoşunların mövcud hərbi hissələrinin statusunun rəsmiləşdirilməsinin əsasını qoyub. Məhz bu əmrin qüvvəyə minməsi ilə respublikamızın ayrı-ayrı bölgələrində Daxili Qoşunların yeni hərbi hissələrinin (3645, 5479, 5480, 5481, 5482, 3270, 3280) təşkilinə başlanıb. 1992-ci ildə Daxili Qoşunların hərbi hissələri şərti olaraq dörd nömrə ilə adlandırılsa da, Daxili İşlər Nazirinin 03.01.1993-cü il tarixli müvafiq əmri ilə bütün hərbi hissələrin şərti adlandırılmasında beşnömrəli sistema keçilib.

Bununla yanaşı, hərbi hissələrin təyinatı və təşkilati-ştat strukturunda da dəyişikliklər edilib. Bir sıra yeni hərbi hissələrin təşkili üzrə tədbirlər həyata keçirilməyə başlanıb.

Azərbaycan Respublikası Prezidentinin 09.01.1993-cü il tarixli, 399 nömrəli fərmanına əsasən, DİN Daxili Qoşunların 6500 və 7535 saylı hərbi hissələri onun tərkibindən çıxarılaraq Ədliyyə Nazirliyinin müvafiq idarəsinin tabeliyinə verildi. Beləliklə, Daxili Qoşunlarda cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının mühafizəsi, məhkumların və istintaq altında olan şəxslərin silahlı müşayiət olunması funksiyalarının yerinə yetirilməsi dayandırılıb.

Daxili Qoşunların arxivində qoşunların ön cəbhədə fəaliyyətinə dair maraqlı sənədlər saxlanır. Belə ki, Daxili Qoşunlar Komandanının 29.10.1992-ci il tarixli müvafiq əmrindən məlum olur ki, Daxili Qoşunların Ağdam, Ağdərə və Füzuli rayonlarında yerləşən və döyüş əməliyyatlarında iştirak edən hərbi hissələrinə çevik vahid komandanlığın təşkili məqsədilə ön cəbhə qərargahı yaradılıb. Döyüş şəraitində belə bir qərargahın təşkili vəziyyətin dikte etdiyi zərurət idi. Müharibə təcrübəsi göstərir ki, ayrı-ayrı istiqamətlər üzrə döyüş tapşırıqlarını yerinə yetirən hərbi hissələrin vahid qərargahdan idarə olunması və koordinasiyası vacibdir. Həmin dövrdə ön cəbhə qərargahının fəaliyyətinin öyrənilməsi ayrı bir tədqiqatın mövzusudur.

Döyüş əməliyyatları getdiyi dövrdə ön cəbhənin ayrı-ayrı zonalarında Daxili Qoşunların müvəqqəti fəaliyyət göstərmiş hərbi hissələri (15010, 15011, 15012, 15013, 15014) yaradılıb. Bu hərbi hissələrin qısa vaxtda dislokasiya yerdəyişmələri, şəxsi heyətinin birləşdirilməsi prosesi həyata keçirilib. Həmin hərbi hissələrin fəaliyyəti uzunmüddətli olmayıb və ələ o dövrdə onlar ləğv olunublar.